# Bəşəriyyət bir çox problemlə üz-üzədir

## COP29 bu məsələlərin birgə həllinə xidmət edəcək

**"Dünyada baş verən iqlim dəyişiklikləri, müharibələr, atmosferin çirkləndirilməsi bu gün insanları bir çox problemlə üz-üzə qoyub. Ona görə yeni vasitələr, alternativ yollar axtarılır. Bu sahədə dünya ölkələri bir araya gəlməli və bəşəriyyət üçün ciddi problemləri birgə aradan qaldırmalıdırlar".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.

Komitə sədri bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 29-cu sessiyası - COP29-un noyabrda Azərbaycanda keçirilməsi də bu ali məqsədə xidmət edir. Çünki bu, dünyada ən böyük tədbirlərdən biri sayılır və konfransda müzakirə ediləcək məsələlər ciddi qlobal xarakterə malikdir. İlk növbədə bu konfransda iqlim dəyişiklikləri, ətraf mühitin qorunması ilə bağlı məsələlər gündəmə gəlir, aparılacaq müzakirələr gələcək üçün çox faydalı olur. Belə konfransa Azərbaycanın evsahibliyi etməsi, ölkəmizin beynəlxalq aləmdə artan yüksək nüfuzundan xəbər verir.

COP29-a ciddi hazırlıq getdiyini deyən T.Rzayev bildirib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, konfransla bağlı əsaslı işlər görülür. "2024-cü il dövlət başçısı tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə qoşulub. 2030-cu ilə qədər istixana qazlarının miqdarının 30 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması nəzərdə tutulub. Bu gün Azərbaycanda "yaşıl dünya" naminə hərəkat genişləndirilib. Yeni yaşıllıqların salınması, ekoloji tarazlığın təmin olunması istiqamətində aparılan işlər uğurla davam etdirilir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, konfrans Azərbaycanın həyatında böyük əhəmiyyətə malikdir. Bu tədbirdə müzakirə ediləcək məsələlər ancaq Azərbaycanın deyil, dünya ölkələrinin də maraqlarına uyğundur. Ölkəmizdə keçirilmiş bir çox beynəlxalq tədbir Azərbaycanın artıq dünyanın diqqət mərkəzində olduğunu deməyə əsas verir. COP29-la əlaqədar keçiriləcək konfransda da bir çox ölkə Azərbaycan dəyərlərindən faydalanacaq və ölkəmiz nümunə kimi təqdim ediləcək.

T.Rzayevin sözlərinə görə, Azərbaycan öz nailiyyətləri ilə sülhə, demokratiyaya verdiyi töhfələrlə yanaşı, dünyaya yeni mesajlar verir: "Prezident İlham Əliyev bütün çıxışlarında bəyan edir ki, dünyada bəşəri ideyaların təbliğ olunması, insanların rahatlığı üçün mübarizə aparır və bu mübarizədən heç vaxt çəkilməyəcək. Əldə etdiyimiz qələbələr, iqtisadi nailiyyətlər Azərbaycanın sülhün, əmin-amanlığın tərəfdarı kimi çıxış etdiyini bir daha göstərir. Sözsüz ki, bu da bəşəriyyət üçün vacibdir". Deputat vurğulayıb ki, COP29-un Azərbaycanda keçirilməsi ölkələrin birliyinə, xalqların yaxınlaşmasına, problemlərin həll olunmasına xidmət edəcək. Bu da bəşəriyyət, insanların sağlamlığı üçün önəmlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan $g 2024.- 27 fevral, № 44.- S.10.